АХМЕТ ЯСАУИ УНИВЕРСИТЕТІ

КАЗАХСКИЙ НАЦИОНАЛЬНЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ ИМЕНИ АБАЯ

ОШ МАМЛЕКЕТТИК УНИВЕРСИТЕТИ

# «TURKIY XALQLARNING MA’NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI»

## MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA

Toshkent - 2025

O‘ZBEKISTON RESPUBLIKASI OLIY TA’LIM, FAN VA INNOVATSIYALAR VAZIRLIGI

ALISHER NAVOIY NOMIDAGI TOSHKENT DAVLAT O‘ZBEK TILI VA ADABIYOTI UNIVERSITETI

# «TURKIY XALQLARNING MA’NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI»

## MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA MATERIALLARI

TOSHKENT - 2025

Mazkur ilmiy maqolalar to‘plamida «Turkiy xalqlarning ma’naviy integratsiyasi: tili, adabiyoti, madaniyati» II Xalqaro ilmiy-amaliy konferensiyasi materiallari jamlangan. Maqolalarda turkiy tillarning rivoji va o‘zaro o‘xshashliklarini, umumiy adabiy merosimizni ilmiy asosda chuqur o‘rganish; madaniy aloqalarni zamonaviy texnologiyalar orqali kengaytirish; tarjima va adabiy almashinuv orqali xalqaro miqyosda muloqotni kuchaytirish; raqamli platformalar orqali integratsiyani amalga oshirishga oid fikrlar yoritib berilgan. To‘plamdan dunyo bo‘yicha taniqli turkiyshunos olimlar, metodistlar, o‘qituvchilar hamda ToshDO‘TAU iqtidorli talabalarining maqolalari ham o‘rin olgan.

To‘plam til va adabiyot ta‘limi bilan shug‘ullanuvchi professor-o‘qituvchilar, shu sohaning tadqiqotchilari, magistrant va talabalarga mo‘ljallangan.

**Taqrizchilar:**
**G.Asilova** – *pedagogika fanlari doktori (DSc), professor.*
**G.Norimova** – *filologiya fanlari nomzodi, dotsent.*

**Tahrir hay’ati:**
S.Muhamedova, S.Qambarova, O.Turaqulova,
Y.Shirinova, M.Yo‘ldosheva.

*Mazkur to‘plam matni Alisher Navoiy nomidagi Toshkent davlat o‘zbek tili va adabiyoti universiteti Kengashining 2025-yil 2-iyundagi 10-sonli majlisida muhokama qilinib, nashrga tavsiya qilingan.*

*Izoh: Maqolalarning ilmiy saviyasi uchun mualliflar o‘zlari mas’uldirlar.*

# ÇÖVKƏN OYUNU

**Zülfiqarova Aytən**
*Filologiya fakültəsinin tələbəsi*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*orcid.org/0009-0001-2551-5460*
*Zulfuqarliayten57@gmail.com*
*Elmi rəhbər: f.e.d.prof. Mirvari İsmayılova*

**Xülasə.** Çövkən oyunu Azərbaycan xalqının qədim mədəni irsinin ayrılmaz hissəsi olaraq, həm idman, həm də sosial-mədəni baxımdan zəngin və kompleks bir fenomen kimi qiymətləndirilir. Bu atüstü kollektiv oyun ilk dəfə orta əsrlərdə formalaşmış, döyüş və süvari bacarıqlarını təkmilləşdirmək məqsədi ilə tətbiq olunmuş və zamanla xalq arasında geniş yayılmışdır. Məqalədə Çövkənin tarixi kökləri, etnoqrafik və arxeoloji mənbələrdəki izləri, oyunun klassik və müasir formaları, qaydaları, iştirakçı profilləri və oyun alətləri geniş şəkildə təhlil edilir. Eyni zamanda, Çövkənin Azərbaycan mədəniyyətindəki simvolik rolu, milli kimliyin ifadə vasitəsi kimi funksiyası və UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs kimi tanınmasının əhəmiyyəti vurğulanır. Məqalə həm də müasir dövrdə bu ənənəvi oyunun dirçəldilməsi, populyarlaşdırılması və beynəlxalq səviyyədə tanıdılması istiqamətində görülən tədbirləri qiymətləndirir. Çövkənin yalnız keçmişin yadigarı deyil, eyni zamanda çağdaş mədəni siyasətin və mədəniyyət diplomatiyasının aktiv komponenti kimi rolu ön plana çıxarılır. Bu araşdırma, Çövkənin yalnız idman oyunu deyil, həm də dinamik mədəni irs nümunəsi olduğunu göstərməyi hədəfləyir.

**Açar sözlər:** Çövkən, atüstü oyun, qeyri-maddi mədəni irs, Azərbaycan mədəniyyəti, maddi oyun, tarixi idman növü, UNESCO, mədəni irsin qorunması.

**Annotatsiya**. Chovken oʻyini ozarbayjon xalqining qadimiy madaniy merosining ajralmas qismi sifatida ham sport, ham ijtimoiy-madaniy nuqtai nazardan boy va murakkab hodisa hisoblanadi. Bu jamoaviy ot minish oʻyini ilk bor oʻrta asrlarda shakllangan boʻlib, jangovar va otliqlar mahoratini oshirish maqsadida qoʻllanilgan va vaqt oʻtishi bilan xalq orasida keng tarqalgan. Maqolada Chovkenning tarixiy ildizlari, etnografik va arxeologik manbalardagi izlari, oʻyinning klassik va zamonaviy shakllari, qoidalari, ishtirokchilari profili, oʻyin asboblari keng tahlil qilingan. Shu bilan birga, Chovkenning ozarbayjon madaniyatidagi ramziy oʻrni, milliy oʻzlikni ifodalash vositasi sifatidagi funksiyasi, YuNESKO tomonidan nomoddiy madaniy meros sifatida e’tirof etilishi muhimligi ta’kidlanadi. Maqolada zamonaviy davrda ushbu an’anaviy oʻyinni qayta tiklash, ommalashtirish va xalqaro miqyosda targʻib qilish borasida amalga oshirilayotgan chora-tadbirlar ham baholanadi. Chovken nafaqat oʻtmish yodgorligi, balki zamonaviy madaniyat siyosati va madaniy diplomatiyaning faol tarkibiy qismidir. Ushbu tadqiqot Chovkenning nafaqat sport oʻyini, balki dinamik madaniy meros namunasi ekanligini koʻrsatishga qaratilgan.

**Kalit soʻzlar**: Chovken, ot oʻyini, nomoddiy madaniy meros, Ozarbayjon madaniyati, moddiy oʻyin, tarixiy sport, YUNESKO, madaniy merosni muhofaza qilish.

**Abstract.** The game of Chovgan represents an integral part of Azerbaijan’s ancient cultural heritage, distinguished by its rich socio-cultural and athletic dimensions. As a traditional equestrian team sport, Chovgan originated in the medieval period, serving initially as a training ground for cavalry and martial skills, before evolving into a widely practiced and celebrated folk game. This article explores the historical roots of Chovgan, drawing on ethnographic and archaeological sources, and examines its classical and contemporary forms, rules, equipment, and the profile of its participants. Particular emphasis is placed on the symbolic significance of Chovgan in Azerbaijani culture, where it functions as a means of expressing national identity. The article also highlights the importance of its recognition by

UNESCO as Intangible Cultural Heritage and evaluates current efforts aimed at revitalizing, promoting, and internationalizing this traditional game. Chovgan is presented not merely as a relic of the past, but as a dynamic element of contemporary cultural policy and cultural diplomacy. This study ultimately argues that Chovgan is both a sport and a living cultural legacy.

**Keywords:** Chovgan, equestrian game, intangible cultural heritage, Azerbaijani culture, national game, historical sport, UNESCO, cultural heritage preservation.

Çövkən oyunu Azərbaycan xalqının qədim tarixə malik mədəniyyətində xüsusi yer tutan ənənəvi atüstü oyundur. Bu oyun təkcə əyləncə və idman növü olmaqla kifayətlənmir, həm də cəngavərlik, çeviklik və kollektiv bacarıqların inkişafına xidmət edən bir vasitə kimi tarixən böyük əhəmiyyət daşıyıb. Çövkənin ilk izlərinə Orta əsrlərdə rast gəlinir və bu oyun klassik Şərq ədəbiyyatında, miniatür sənətində və tarixi mənbələrdə öz əksini tapmışdır. Əsrlər boyu həm saraylarda, həm də xalq arasında geniş yayılmış bu oyun, sosial status və mədəni kimliyin təzahür formalarından biri olmuşdur.

Müasir dövrdə çövkən təkcə mədəni irsin qorunması baxımından deyil, həm də Azərbaycan dövlətinin milli kimlik və mədəniyyət siyasətində xüsusi yerə malikdir. 2013-cü ildə UNESCO tərəfindən "təcili qorunmağa ehtiyacı olan qeyri-maddi mədəni irs" siyahısına daxil edilməsi bu oyunun beynəlxalq səviyyədə tanınmasına və dirçəldilməsinə təkan vermişdir. Bu məqalədə çövkənin tarixi, funksional və estetik xüsusiyyətləri araşdırılır, onun çağdaş mədəniyyət və idman kontekstində rolu təhlil olunur. Məqsəd, çövkənin yalnız keçmişin yadigarı deyil, həm də dinamik və yaşar mədəni dəyər olduğunu sübut etməkdir.

Çövkən, bəzən çovqan— at ilə oynanılan idman komanda oyunu və müasir polo oyununun bir versiyasıdır. Çövkən" sözü bəzi Azərbaycan mənbələrində "ağaccıq" kimi işlədilmişdir. Çövkən oyununun adı da oyunda işlədilən alətin adı ilə adlandırılmışdır. Bu da ağacdan hazırlanmış, çövkən adlandırılan alətdir. Çövkəni oyunçular at belində bu alətin köməyi ilə oynayırlar.

Çövkən IX-XVII yüzilliklərdə Azərbaycanda geniş yayılmış, əsasən at üstündə, qismən atsız oynanılan qədim oyun və bu zaman istifadə olunan ucu əyri uzun dəyənəyin adıdır. Musiqinin müşayiəti ilə keçirilən bu oyunda atları rəng etibarı ilə bir-birindən fərqli olan hər dəstədə 6-8, bəzən isə daha çox atlı iştirak ediri. Oyunda əsas məqsəd dəyənəklə rəqib qapısına top vurmaqdır i. Əhalinin müxtəlif təbəqələri arasında geniş şöhrət qazanmış, bəzən isə kişilərlə yanaşı, qadınların iştirakı ilə keçirilən bu oyunun əski qaynaqlarda "kuyiçövkən", "çomaq oyunu" və "çövkənbazi" adları ilə qeyd edilən başqa variantları da olmuşdur. Azərbaycan dilində "çövkən" termini "çovqan" kimi də səslənir və "Azərbaycan dilinin izahlı lüğət"lərində bu sözün mənası "at üstündə ucu əyri çomaqla top-top oyunu" kimi təsvir edilir. "Çövkən" sözünün və oyununun türk mənşəli olması türklər yaşayan arealda böyük izlər buraxaraq digər xalqlar tərəfindən mənimsənilmişdir.

Komanda oyun növü olan çövkən yarışları eramızın birinci minilliyinin ortalarında formalaşmış, yüzillər ərzində Azərbaycanda, Orta Asiyada, İranda, Türkiyədə, İraqda və qonşu ölkələrdə məşhur olmuşdur. Mənbələr XII əsrdə İslam dünyasının mədəni mərkəzlərindən Bağdadda Orta Şərq ölkələrinin atçaparları arasında tarixdə ilk beynəlxalq çövkən yarışlarının keçirildiyi göstərir. Çövkən yarışlarının Azərbaycanda çox qədimdən məşhur olduğu faktlarla təsdiqlənmişdir. Örənqalada aparılmış arxeoloji qazıntılar zamanı tapılan şirli qab üzərində çövkən oyunun təsvir edildiyi rəsm bu oyunun IX əsrdə Beyləqan şəhərində yayıldığını əyani sübutdur.

Azərbaycan ədəbiyyatında çövkənin izlərinə çox rast gəlinir. "Kitabi-Dədə Qorqud" boylarında, I Şah Təhmasibin "Kuh və çövkən" və Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində çövkəndən bəhs edilmişdir. Klassik Azərbaycan şairləri olan Qətran Təbrizi, Xaqani Şirvani, Zülfüqar Şirvani, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai və digərlərinin şeirlərində çövkənlə bağlı müəyyən ifadələrə rast gəlinir. "Kitabi-Dədə Qorqud" dastanının "Salur Qazanın evinin yağmalanması" boyunda yazılır:

*Qılıncını nə öyərsən, mərə kafir, əyri başlı çövkənimcə gəlməz mənə.*

Ədəbi nümunələrdən də məlum olur ki, Azərbaycanda çövkən oyununda təkcə kişilər deyil, qadınlar da iştirak edib. Nizaminin "Xosrov və Şirin"poemasında Şirin çövkən meydanında Sasani hökmdarı II Xosrovdan geri qalmır. Şirin ilə bərabər qızların da bu oyunda iştirakı təsvir edilmişdir . Yazıçı Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanında xüsusii bir fəsil çövkən oyununa həsr olunub. O bölümdə göstərilir ki, Ərəb Xilafəti dövründə bu oyun ən təntənəli bayramlar, xüsusi günlər zamanı keçirilirdi və bu oyunun ən yaxşı ustaları kimi azərbaycanlılar ora aparılırdı.

*1842-ci ildə Britaniyalı səyyah M. Braun çövkən haqqında öz fikirlərini belə izah edirdi:*

Bu, atlarla əsl hokkey oyununa bənzəyir. Çox gözəl oyun növüdür və düşünürəm ki, qərblilər üçün də faydalı olardı.

Qarabağ xanlığı dövründə çövkən oyunlarına maraq daha da artıb, Şuşa şəhərindəki Cıdır düzündə, Xankəndi və Xocalı arasındakı ərazidə, Ağdamda cıdır yarışları, müxtəlif atüstü oyunlar, o cümlədən çövkən yarışları keçirilib. 1950-ci illərdə başda çövkən olmaqla bir sıra Azərbaycan milli atüstü oyunları bərpa edildi. Bu sahənin tədqiqatçısı Fikrət Hüseynov tarixi sənədlər və folklor materialları əsasında oyun qaydalarını hazırlayaraq kitabça şəklində çap etdirdi. 1960-cı ilin may ayında ilk dəfə olaraq Azərbaycanın qərb bölgəsinin bir neçə kənd komandası arasında çövkən yarışı keçirildi. Bir ildən sonra çövkən yığma komandası Bakı cıdır meydanında respublika komandasına 2:1 hesabı ilə qalib gəldi. Çövkən Moskvada keçiriləcək yarışlarda iştirak etmək hüququ qazandı.

2006-cı ildən Şəki rayonunun Daşüz kəndində yerləşən Respublika Atçılıq Turizm Mərkəzinin Şəki filialında çövkən üzrə "Prezident Kuboku" keçirilir. Həmin ildə çövkənlə məşğul olan və yarışlarda iştirak edən cəmi 3 Azərbaycan rayonu vardısa, 2014-cü il müddətində onların sayı 20-ə çatmışdır. 2016-cı ildə

Prezident Kuboku uğrunda Azərbaycandan 22 şəhər və rayonundan 24 komanda iştirak etmişdir.

"Qarabağ atı ilə oynanılan çövkən oyunu" 2013-cü ildə UNESCO-nun Qeyri-maddi mədəni irsin Reprezentativ Siyahısına daxil edilmişdir. [1]

Çövkən oyunu Azərbaycan xalqının tarixi, mədəniyyəti və sosial həyat tərzi ilə sıx bağlı olan dəyərli bir milli irs nümunəsidir. Bu oyun əsrlər boyunca yalnız bir əyləncə və idman növü kimi deyil, həm də hərbi bacarıqların, kişi ləyaqətinin və kollektiv dəyərlərin formalaşmasında mühüm rol oynamışdır. Tarixi mənbələr, ədəbiyyat və incəsənətdəki izləri onun dərin köklərə malik olduğunu təsdiq edir. Müasir dövrdə çövkənin dirçəldilməsi və UNESCO tərəfindən tanınması, Azərbaycanın mədəni irsinin qorunması və dünyaya tanıdılması istiqamətində atılmış mühüm addımlardandır. Bu oyunun yenidən xalq arasında populyarlaşdırılması, həm də milli kimliyin və mədəni diplomatiyanın gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Nəticə etibarilə, çövkən yalnız keçmişə aid nostalji bir oyun deyil, həm də çağdaş dövr üçün aktual, yaşar və inkişaf etməyə qadir bir mədəni irs formasıdır. Onun qorunması və gələcək nəsillərə ötürülməsi yalnız Azərbaycan üçün deyil, ümumbəşəri mədəni müxtəlifliyin qorunması baxımından da mühüm əhəmiyyət kəsb edir.

**ƏDƏBİYYAT**

1. UNESCO. (2013). Chovqan, a traditional Karabakh horse-riding game in the Republic of Azerbaijan. Retrieved from https://ich.unesco.org/en/USL/chovqan-a-traditional-karabakh-horseriding-game-in-the-republic-of-azerbaijan-00849

2. Hacıyev, R. (2015). Azərbaycanın atüstü milli oyunları. Bakı: Elm və Təhsil Nəşriyyatı.

3. Məmmədov, T. (2018). Çövkən oyununun tarixi və mədəni funksiyaları. Azərbaycan Folkloru, 12(3), 45–52.

4. Aliyev, E. (2020). Traditional Equestrian Sports in Azerbaijan: A Historical Perspective. Baku Journal of Cultural Studies, 5(2), 77–88.

5. UNESCO. (n.d.). Intangible Cultural Heritage: Lists. Retrieved from https://ich.unesco.org/en/lists

6. İsmayılova, L. (2019). Çövkənin milli kimlikdə rolu. Milli İrs Jurnalı, 4(1), 23–30.

7. Mahmud Kaşğarlı Cild II. №1. 2024, Tom II №1. 2024, Volume II. №1. 2024

| | |
|---|---|
| ***Zhumagali İBRAGİMOV.*** *KAZAK TÜRKÇESİNİN TÜRKİSTAN AĞZINDA EDATLAR* | 245 |
| ***Зульфия Ишкильдина, Светлана Косцова.*** *СЛОВООБРАЗОВАТЕЛЬНАЯ СТРУКТУРА СЛОВА В РУССКОМ И БАШКИРСКОМ ЯЗЫКАХ: СОПОСТАВИТЕЛЬНЫЙ АСПЕКТ* | 251 |
| ***Ahmedova Shaxnozaxon.*** *TOPONIMIKA FANI VA UNING RIVOJLANISH BOSQICHLARI* | 256 |
| ***Shirinova Yekaterina Turakulovna.*** *O'ZBEK VA RUS TILLARI MUROJAAT VOSITALARI TADQIQIGA DOIR* | 261 |
| ***Aynur Cəfərova.*** *QARAQALPAQ DİLİNDƏ KONSONATLARIN ( SAMİTLƏRİN ) İŞLƏNMƏSİ* | 267 |
| **IV SHU'BA. TURKIY XALQLARNING UMUMIY MADANIY MEROSI** | |
| ***Аминев Закирьян Галимьянович.*** *ОБ АРХАИЧЕСКИХ БАШКИРСКИХ ЭПОСАХ «УРАЛ БАТЫР» И «АКБУЗАТ»* | 275 |
| ***Турганбаев Нурмамат Орозович.*** *БАЙЫРКЫ ТАШ ЖАЗМА ЭСТЕЛИКТЕРДЕГИ ОРТОК СӨЗДӨР* | 278 |
| ***Адильбекова Эльмира Сейтимовна, Емре Гүлже.*** *TÜRK ANLATI GELENEĞİNDEKİ GÖLGE OYUNLARI: KARAGÖZ* | 286 |
| ***Turgay AKDURUŞ.*** *RENKLERİN SİYASİ VE TOPLUMSAL OLAYLARDA KULLANIMI* | 295 |
| ***Filiz GÜVEN, Zeynep AVCI.*** *İŞLEVSEL TİPTEN BELLEKSEL TEMSİLE: EMİR TİMUR'UN TÜRKİYE SAHASINDAKİ HALK ANLATILARINDA TİPOLOJİK DÖNÜŞÜMÜ* | 303 |
| ***Камалова Гульдар Рашитовна, Шакурова Шаура Рашитовна.*** *НАУЧНОЕ НАСЛЕДИЕ И ВКЛАД ВЫДАЮЩЕГОСЯ УЧЕНОГО-ТЮРКОЛОГА РАШИТА ШАКУРОВА В ГУМАНИТАРНУЮ НАУКУ* | 312 |
| ***Алиева Ляззат Бердуақасқызы, Ұлас Жанниет.*** *TÜRK MODERNLEŞMESİNİN TAŞIYICI GÜCÜ: HALK TİYATROSU* | 322 |
| ***Əhmədova Səbirə Şövqi qızı.*** *SƏMƏRQƏND ŞƏHƏRİNİN TARİXİ MEMARLIQ ABİDƏLƏRİ* | 328 |
| ***Fatimə Salmanova.*** *AZƏRBAYCAN MUĞAMI* | 334 |
| ***Sobirova E'zoza G'ayrat qizi.*** *TURKIY XALQLARNING MILLIY QADRIYATLARINI TALQIN ETISH* | 339 |
| ***Ayan Əlizadə.*** *QƏRBİ AZƏRBAYCAN BÖLGƏSİNİN ZƏNGİN MƏTBƏXİ* | 341 |
| ***Həsənova Ülkər Fikrət.*** *TARİX DƏRSLƏRİNDƏ AKMEOLOJİ SƏRİŞTƏNİN FORMALAŞDIRILMASINDA İSTİFADƏ OLUNAN ÜSUL VƏ VASİTƏLƏR* | 348 |
| ***Aysel Hüseyinova.*** *UŞA-QARABAĞIN MƏDƏNİ İNCİSİ* | 353 |
| ***Hüseynova Fatimə.*** *AZƏRBAYCAN VƏ ÖZBƏK XALÇALARI* | 359 |
| ***Zülfiqarova Aytən.*** *ÇÖVKƏN OYUNU* | 367 |
| ***Abbosova Mubina.*** *ZAHIRIDDIN MUHAMMAD BOBUR - TURKIY MADANIYAT TARG'IBOTCHISI* | 371 |